

**Allahşükür Ağa**

## Arzu

Bir quş qanadı qədər sevinmək istəyirəm.
Hanı qanadlar, qırıldı ki...
Quşları güllələr yamsıladı,
Güllələr quşlara vuruldu ki?..
Fikir kimi şütüyən bir arı qədər sevinmək istəyirəm,
Hanı, arılar şəkərlə aldadıldı ki?..
Balıqlar dənizin xəyallarıdı,
Bir balıq qədər atılıb-düşmək istəyirəm,
Hanı, bütün balıqlar tordadı ki...
Yarpaqlar çiçək olanda
Qırmızı bir alma kimi gülmək istəyirəm,
Hanı, bu il meyvələr olmadı ki...

## Bayraq şəkli

Körpə süd şüşəsindən elə yapışıb,
Elə bil, bir daha süd içməyəcək.
Mən bayraq çəksəydim o uşağın şəklini vurardım
Bütün ölkələrin bayraqlarına.
Kim istəməzdi bunu?
O uşağın balaca ayaqlarını elə çəkərdim ki,
Yer üzündə bütün qumbaralar
Bir anda intihar edərdilər.
Generallar döşlərindəki ördenləri
Bir an içində qoparıb atardılar.
Tankın yadına düşər
Bir vaxtlar uşaq oyuncağı olmaq arzusu.
Güllələrin yadına düşər
Uşaq barmaqlarına bənzəməyi.
Və Suriyada uşaqların süd şüşəsinə dəyib
Qollarını üzməyi.
Mən bu bayraq şəklini
Tez çəkə bilsəydim...

**Ədəbiyyat.- 2016- cı il.- 3 dekabr.- S. 24.**

## Yağış

Göylərin dərdini deyib yerlərə.
Dağlarda, düzlərdə sellənən yağış.
Buludun bir sevgi məktubu kimi,
Küləyin əlində yellənən yağış.
Şimşəklər qırmızı sətirləridi,
İldırım diliylə dillənən yağış.
Damcısı torpağa dəyib əzilən,
Sonra çiçəklərlə güllənən yağış.
Yoxsul adamları küsdürüb bəzən,
Küçədə, yollarda bellənən yağış.
İçindən sevgisi qurtaran kimi
İri çalalarda göllənən yağış.
Göllənib torpaqda fikir eləmə,
Yenidən göylərə qayıdacaqsan.
Döyüb qapımızı, pəncərəmizi
Sən bizi yuxudan oyadacaqsan.
BəyənDaha çox reaksiya göstər rəy bildir

## Evimizdə bir beşik var

Yayı qırılmış,
Evimizdə bir beşik var.
Soyuyubdu üstündəki laylalar.
Üstündən nə qədər keçib...
Payızlar, yaylar.
Burda səslər boyatdı,
Burda laylalar yatıb,
Amma uşaq oyaqdı.
Laylaları kimi oyadar görəsən,
Laylası yatmış ev olar?
Bəlkə, layla çalım özümə,
Mən yatım,
laylalar oyansın.
Başım üstə qotazlı
Oyuncaqlar oynasın.

## Oynayır...

Hərənin içində hava,
Hərə bir sözə oynayır..
Yoxuşlar üzü dağlara,
Enişlər düzə oynayır..

Misralardan evcik qurub,
Gah yorulub, gah oturub.
Yuxudan təzəcə durub,
Bu adam təzə oynayır...

Şükür olsun bu xoş günə,
Vaqif ol dünya felinə.
Var-dövlət verir əlinə,
Qarşında gürzə oynayır...



Ədəbiyyat.- 2016- cı il.- 3 dekabr.- S. 25.